# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarına

Hörmətli cənab Prezident!

Yazıçılar Birliyinin 75 illiyi və "Sərhədsiz söz" Beynəlxalq forumu böyük uğurla keçirildi. 17 ölkədən 40-dan çox qonaq Azərbaycanın, Bakının hər sahədə olduğu kimi mədəniyyət sahəsində də misilsiz inkişafının şahidi oldular. Dövlətimizin ədəbiyyata, Yazıçılar Birliyinə qayğısı, diqqəti bütün iştirakçılar tərəfindən dönə-dönə qeyd olundu.

Bu tədbirlərin belə yüksək səviyyədə, ölkəmizin, ədəbiyyatımızın adına layiq şəkildə keçirilməsi Sizin xeyirxah dəstəyiniz və yardımınızla mümkün oldu. Buna görə Sizə Yazıçılar Birliyi adından ən dərin minnətdarlığımızı və təşəkkürümüzü bildirir, işinizdə böyük müvəffəqiyyətlər arzulayırıq.

**ANAR**

*Azərbaycan Yazıçılar Birliyinin sədri*

Ədəbiyyat qəzeti.- 2009.- 18 oktyabr. S.1.